KİVDF
**Layihənin istiqaməti:**
**"Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği"**

# Dünyanın hər yerindən görünən Bakı



Telli PƏNAHQIZI
telejurnalist

**Bəlkə də bu məqalə heç yazılmayacaqdı, əgər ara-sıra görüşdüyüm əsl ziyalı, əsl vətənpərvər, hay-küydən, ucuz şöhrətdən, bayağı şoulardan, sensasion xəbərlərdən bezən dostlarımla 3 gündən sonra başlayacaq çox məsuliyyətli və ciddi əhəmiyyət daşıyan BİRİNCİ AVROPA OYUNLARI barədə diskussiyamız hamının belə bir yekdil rəyi ilə tamamlanmasaydı: bu yarışlar xalqımızın tarixi yaddaşı, beynəlxalq aləmdə siyasi statusunun yüksəlməsi, mədəniyyətinin, adət və ənənələrinin təbliği və mənəvi varlığının tanıdılması, millətin bir tam, bütöv kimi millətlər arasında imzasının var olması baxımından çox böyük əhəmiyyət daşıyır.**

Kim nə deyir desin, nə düşünür düşünsün Azərbaycan 40 ildən bəri DÜNYA İDMAN TARİXİNDƏ ən çox müzakirə, mübahisə və fikir ayrılığı doğuran və nəhayət gerçəkləşməsi reallaşan bir problemin həlli məsələsini cəsarətlə öz üzərinə götürdü və müasir jurnalistlərin dili ilə səciyyələndirsək: BİR İLKƏ İMZA ATDI.

Xatırlatmaq yerinə düşər ki, idmanın müxtəlif növləri üzrə ayrı-ayrılıqda Avropa çempionatları keçirildiyindən bu yarışların Avropa səviyyəsində təşkilinə maraq göstərənlərin hər cəhdi idman təqvimində boş günlərin olmaması faktı ilə üzləşirdi. Hətta sonuncu dəfə BOK-nin (Beynəlxalq Olimpiya Komitəsinin) eks-prezidenti Jak Roqqe ( ixtisasca cərrah olan Roqqe yelkənli qayıqsürmə idmanı ilə məşğuldur və 73 yaşlı bu məşhur idman xadiminin-o hal-hazırda BMT Baş katibinin Məcburi Qaçqın Gənclərlə və idmançılarla iş üzrə xüsusi nümayəndəsidir) komitəyə rəhbərliyi dövründə müxtəlif qitələrdə 3 Beynəlxalq Olimpiyada keçirilmişdir) bu məsələni 1990-cı ildə yenidən gündəmə gətirsə də, bir nəticə əldə olunmamışdı. Nəhayət, "İştirakçısı olduğum bütün beynəlxalq yarışlarda müşahidə etdiyim bir cəhət məni həmişə sevindirib: dünyanın müxtəlif ölkələrini təmsil edən idmançılar millətindən, irqindən, dinindən və dilindən asılı olmayaraq yarışların keçirildiyi dövrdə sülh və qarşılıqlı anlaşma şəraitində yaşamağı bacarırlar", - deyən Roqqenin arzusu gerçəkləşdi və 2012-ci ilin dekabrında Romada bir araya gələn Beynəlxalq Olimpiya Komitəsi 2015-ci il iyun ayının 12-dən 28-dək AVROPA OYUNLARININ keçirilməsi barədə qərar qəbul etdi və... cəmi 30 aydan sonra reallaşdırılması planlaşdırılan bu nəhəng tədbirə ev sahibliyi etmək haqqını müstəqilliyinin 24 ilini yaşayan Azərbaycana verdi. Bu təbii ki, həm böyük etimad, həm də gənc və müstəqil bir dövlət üçün yeni sınaq, özünütəsdiq imkanı idi.

Romadan gələn ilk xəbərin müjdəçisi təbii ki, Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti oldu. Xəbərin birmənalı qarşılanmaması da hər kəsin yadındadır. Qolunu-qıçını çırmalayıb hələ gəlməyən çaydan keçməyə hazır olan bədxahlarımız - həm xaricdə, həm də daxildə ucuz dedi-qodularla, qarayaxdılarla, pessimist proqnozlarla düşmənlərimizin hər cür zəhəri üyütməyə gücü çatan dəyirmanına su axıtmağa başladılar.

Amma...sözünü deyən və bu sözünün arxasında dayanan insanlar bütün dünyanın gözü qarşısında bir ilki gerçəkləşdirə, bir rekordun bütün kanonlarını qıra bildilər. Bu müddət ərzində I Avropa Oyunlarının keçiriləcəyi Bakı nəhəng tikinti meydanına çevrildi. Şəhərin infrastrukturuna yeni yollar, yeraltı və yerüstü keçidlər, körpülər və ən başlıcası müasir idman yarışlarının standartlarını üstələyən qurğular daxil edildi.

Bilavasitə idmanla bir yaxınlığı olmayan oxuculara xatırladım ki, belə mötəbər yarışlarım keçirilməsi üçün ən azı 6 idman növü təmsil olunmalıdır. Ancaq qısa müddətdə bir çox ölkələrdən gələn təkliflərə yenidən baxan komitə Oyunlara 6 yox, 12 idman növü daxil etmək qərarını açıqlayır və 2012-ci ilin sentyabrında danışıqlar üçün Azərbaycan paytaxtına gələn Avropa Oyunlarının Baş direktoru Pirs O"Kalohon o vaxt AzTV-yə müsahibəsində bildirdi ki, bir çoxları bu layihənin baş tutacağına ilk günlər inanmırdı.

"Lakin Bakıda söhbət etdiyim məsul şəxslər, xüsusilə də ölkənin prezidenti İlham Əliyevin və Azərbaycanın birinci xanımı, dünyanın bir çox ölkələrində maraqlı ideyalar gerçəkləşdirən və mədəniyyətinizin, milli-mənəvi irsinizin yorulmaz təbliğatçısı olan, bu yarışların Təşkilat Komitəsinə rəhbərliyi də inamla öz üzərinə götürən xanım Mehriban Əliyevanın qətiyyəti və bu işə böyük önəm verməlari dünənəcən bu məsələyə bir qədər etinasız yanaşanları da hərəkətə keçməyə vadar etdi və az sonra bu yarışda iştirak etmək istəyən ölkələrin sayı artdı və biz idmanın 20 növü ilə bu Oyunları başlamaq üçün start düyməsini basdıq". Bu fikri artıq özünü az qala bakılı sayan Pirs O"Kalohon söyləyir.

Bəli, Bakı da, Azərbaycan da I Avropa Oyunlarında qüvvəsini sınayacaq 6 min nəfərdən çox idmançını, bu yarışları izləməyə gələcək minlərlə əcnəbi tamaşaçını, sadəcə, ölkəmizin paytaxtının gözəlliyini seyr etmək niyyətində olan turistlərin pişvazına hazırlaşmağa başlayanda qarşıda 2 ildən bir qədər artıq vaxt vardı. Hətta BOK-nin yetkililəri də Azərbaycanın bu cəsarətli addımına heyrət edirdilər. Çünki "mənəm-mənəm" deyən heç bir Avropa ölkəsi bizim qədər qərarlı və cürətli ola, qitədə ilk dəfə keçiriləcək belə məsul və möhtəşəm yarışa bu qədər böyük vüsətlə, özünəgüvən hissi ilə hazırlaşa bilməzdi.

Bakı bizim hər birimizin gözü qarşısında öz libasını dəyişməyə, hər gün hüsnünə yeni bir çalar, bir naxış vurmağa başladı.



Bu gün dünyanın gözü Bakıdadır! İllər öncə bizim ölkəmiz haqqında çox cüzi, bəlkə də heç bir təsəvvürü olmayan dünya indi nəzərlərini Bakıya dikib. Planetin idman həvəskarları Bakının, Azərbaycanın harada yerləşdiyini artıq çox gözəl bilir.

Bu gün bütün dünyanın gözü Azərbaycandadır. Bizim bu uğurumuza sevinən də var, nailiyyətlərimizi gözü götürməyənlər də. Qısa müddət ərzində yeni idman obyektlərinin istifadəyə verilməsi, idmançıların rahatlığı üçün hər cür şəraiti olan binaların inşasının başa çatdırılması, yarış meydanlarına aparan yolların yenidən qurulması, yüksək səviyyəli avtobus, taksi xidmətinin yaradılması, mədəniyyət, iaşə müəssisələrinin fasiləsiz işinin təmin edilməsi...bir sözlə, bu yarışlarla əlaqəsi olan və hətta olmayan hər bir Azərbaycan vətəndaşı üçün başlanmasına sayılı günlər qalan Oyunların yüksək səviyyədə keçməsi çox önəmlidir, vacibdir, məsuliyyətlidir.

Rusiya kimi fövqəl bir dövlətin prezidenti bu yarışların işıqlandırılmaması ilə bağlı narahatlığını və öz ölkəsində fəaliyyət göstərən telekanalların loyal münasibətini tənqid edərək "Bakıda keçirilən I Avropa Oyunları dünya idman tarixinə düşəcək bir hadisədir. Tarixdə Olimpiya oyunlarına bərabər olan ilk Avropa Oyunlarıdır!" deyib. İndi təkcə Rusiyanın deyil, bir sıra xarici ölkələrin məşhur telekanalları da yarışların birbaşa yayımlanması barədə müqavilə imzalayıblar. Yeri gəlmişkən AzTV və "İdman Azərbaycan" kanalı iyunun 12-də saat 19.45-dən - yəni Avropa Oyunlarının açılış mərasimindən ta mükafatlandırma anınadək günün 22 saatını müxtəlif yarışların birbaşa yayımı və şərhləri ilə milyonlarla tamaşaçıya təkrarsız mənəvi həzz yaşatmağa çalışacaq. Hər gün 30 dəqiqəlik iki icmal təqdim olunacaq. Canlı yayımların keyfiyyətini yaxşılaşdırmaq məqsədilə iki studiyada əsaslı yenidənqurma işləri aparılıb, idman jurnalistləri üçün hər cür texniki avadanlıqlarla təchiz olunmuş iki şərhçi kabinəsi yaradılıb. Bütün bunlar tamaşaçılara eyni anda Bakının 8 idman arenasında keçirilən yarışları izləmək imkanı verəcək.

Avropa Oyunlarına həsr olunmuş 7 yeni mahnı yazılıb və bu əsərlər Azərbaycan Televiziyasının bədii kollektivlərinin ifasında lentə alınıb, kliplər çəkilib. Bu yarışa qatılan ölkələrdə keçirilən təqdimat mərasimlərində Azərbaycanın tarixini, milli-mənəvi dəyərlərini, müasir inkişaf mərhələlərini, təbiətini, milli mətbəxini özündə ehtiva edən sərgilər açılıb, konsert proqramları təşkil olunub və bütün bu tədbirlər barədə televiziyamızda geniş verilişlər, süjetlər göstərilib. Bütün bunlarsa xaricdə yaşayan hər bir insana Azərbaycanı bir qədər də yaxınlaşdırıb və onlar bizim ölkəmiz haqqında çox zəngin və maraqlı bilgilər əldə edə biliblər. İlkin hesablamalara görə, dünyanın dörd bir yanında ən azı 2 milyarddan çox tamaşaçının Bakıda keçiriləcək I Avropa Oyunlarına baxacağı gözlənilir.

Aprelin 26-da Bakının qədim Atəşgah məbədində alovlandırılan "Baki -2015"-in məşəli Azərbaycanın 60 bölgəsində Avropa Oyunlarının rəmzi məşəllərini alışdıraraq və minlərlə vətəndaşımızın coşqusu ilə qarşılandı və iyunun 7-də yenidən paytaxta gətirildi və möhtəşəm şəhərimizin tarixi məkanlarından birində - Qız Qalasında qərar tutdu. Bu məşəl cəmi 3 gündən sonra, yəni iyunun 12-də düz 17 gün öz ziyası, nuru və hərarəti ilə yüzmilyonlarla sülhsevər insanın könlünə işiq, gözlərinə nur, əməllərinə aydınlıq çiləyəcək. Qazanılacaq 253 dəst medalın hər birinin üstündə doğma Azərbaycanımızın, Bakımızın adı, yurdumuzun əbədi nemətlərinin simvolu olacaq simgələr bəlkə də bir çox iştirakçılar üçün illər sonra da unudulmaz günlərdən-adını ilk dəfə eşidib, gözəlliyini ilk dəfə seyr etdikləri bir ölkədən sadəcə xatirə yox, həm də əzmlə, bacarıq və istedadla qazanılmış bir yarışın həyəcan və nəfəskəsən sevincindən xəbər verəcək dəyərli bir mükafat olacaq. 40 illik maneələrdən sonra nəhayət ki, gerçəkləşməsi mümkün olan və onu keçirmək qisməti də bundan sonra DÜNYANIN HƏR YERİNDƏN GÖRÜNƏCƏK BAKININ payına düşən bu yarışın bizə nə verəcəyi barədə cəfəng və nadancasına fikirlər söyləməyə çalışanlara da məncə, ən mükəmməl və sərrast cavabı da elə xarici məmləkətlərdə yaşayan və dünya miqyaslı bu tədbirə maraq göstərən siyasətçilərdən və mütəxəssislərdən eşitmək yəqin ki, daha inandırıcı və məntiqli olacaq:

**İngiltərə paytaxtının lord meri Allen Yarou:** "Bakıda keçiriləcək möhtəşəm idman bayramı dünyada Azərbaycana olan etimadı bir az da artıracaq, ölkənin beynəlxalq ictimaiyyət tərəfindən yenidən kəşf edilməsi, onun malik olduğu potensialı yaxından görmək fürsəti deməkdir!"

**Polşanın Baş naziri Yanus Pexoçinski:** "Bu idman yarışları dünya dövlətlərinin Azərbaycana marağını artıracaq, Polşa ilə Azərbaycanı bir-birinə daha da yaxınlaşdıracaq".

**"Bakı-2015"-in Əməliyyat direktoru Saymon Kleq:** "Azərbaycanda bu yarışların yüksək səviyyədə keçirilməsi üçün yüksək səviyyəli infrastruktur yaradılıb".

**Gürcüstan Milli Olimpiya Komitəsinin birinci vitse-prezidenti Elqucia Berişvili:** "Azərbaycan bizim üçün ən yaxın dost ölkədir. Dostumuza verilən qiymət elə bizə verilən qiymətdir. Bu yarışların Azərbaycanda keçirilməsi qərarı təbii idi. Çünki bu ölkədə idmanın inkişafı üçün mükəmməl baza var".

**Böyük Britaniya Parlamenti Lordlar Palatasının üzvü lord Addinqton:** "Bakı-2015" Avropa qitəsi üçün yeni və təqdirəlayiq bir təcrübə olacaq!"

Bu rəylərin, xoş arzuların və maraqlı fikirlərin sayını istənilən qədər artırmaq da olar və inanıram ki, idmana, gözəlliyə, mənəvi saflığa, sağlam ruha, dünyada sülhə, əmin-amanlığa, firavan, sakit və rahat həyata dəyər verən, körpələrinin gələcəyini düşünən hər bir insan bu sözlərin, bu fikirlərin altına öz imzasını atmağa hazırdır!

Gəlin biz də bir MİLLƏTİMİZİN İMZASININ İMZALAR İÇİNDƏ VAR OLMASI ÜÇÜN bu fürsətdən yararlanmağa çalışaq. 21-ci yüzilliyin Müstəqil Azərbaycanımıza verdiyi bu qisməti dəyərləndirək. Əsrlər boyu haqqı tapdanan, ədalətsizliyə məruz qalan, özgürlüyü əlindən alınan, sərvəti yadların rifahına xidmət edən, torpağı yağmalan bu VƏTƏNİN, bu DÖVLƏTİN, bu MİLLƏTİN nəhayət ki, dünya qarşısında boy göstərmək fürsəti var! Hər birimiz siyasi baxışlarımızdan, ictimai mənsubiyyətimizdən, bir-birimizə qarşı olan umu-küsümüzdən, hansısa kiçik gileyimizdən, məişət narazılığımızdan asılı olmayaraq bu SINAQ günlərində gücünü, iradəsini, istedad və əzmini sərgiləyən idmançılar kimi biz də öz BİRLİYİMİZİ, HƏMRƏYLİYİMİZİ SEVGİMİZİ, VƏTƏNDAŞ MÖVQEYİMİZİ nümayiş etdirək!

Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi bu fikirlərsə bütün xalqın düşüncəsinin, ümumi rəyinin ifadəsidir: "Azərbaycan böyük və mötəbər bir tədbir keçirir. Bu, tarixi hadisədir və cəmi 2 ildə biz bu oyunlara hazırlıq işlərini başa çatdırdıq. Bu, ölkəmizin gücünü, güclü siyasi iradəmizi göstərir. Baxmayaraq ki, biz müstəqil ölkə kimi gəncik, amma artıq dünya xəritəsində öz yerimizi tuta bilmişik və bu yer möhkəm yerdir!"

İndi söz sənindir, BOYU DÜNYANIN HƏR YERİNDƏN GÖRÜNƏN AZƏRBAYCANIM, dünyaya gözəllik və sevgi bəxş etməyə hazır olan, Bakım! Tanrı sənə yar olsun! BU SINAĞIN, İMTAHANIN MÜBARƏK, ƏZİZ XALQIM!!!

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***